**Ədəbiyyat qəzeti :**
xüsusi buraxılış

22 may 2021-ci il



# Mifləşən xatirələr



İlqar FƏHMİ

Sabir Rüstəmxanlıdan nəsə yazmaq üçün gərək ən azı qırx beş yaşın ola ki, səksəninci illərin sonunda Dövlət mükafatı almış bu gənc şairin adının ətrafındakı sevgi cazibəsinin şahidi olmuş olasan...

Sabir Rüstəmxanlıdan nəsə yazmaq üçün gərək ən azından əlli yaşın ola ki, bütün günü şəhərin küçələrini gəzib "Ömür kitabı"nı soruşduğun mağazaları bir-bir göz önünə gətirə biləsən...

Sabir Rüstəmxanlıdan nəsə yazmaq üçün gərək ən azından əlli beş yaşın ola ki, "Azərbaycan" qəzetini meydanda gətirib paylayan kuryerlərin ətrafında yaranan sıxıntıda az qala nəfəsinin kəsildiyi dəqiqələri xatırlayasan...

Sabir Rüstəmxanlıdan nəsə yazmaq üçün gərək ən azından altmış yaşın ola ki, sakit, təmkinli, eyni zamanda dəmir kimi iradəli səsiylə həm meydanda, həm də Ali Sovetdəki çıxışları zamanı minlərlə insanın gözlərini qırpmadan ona diqqət kəsilməyini yada salasan...

Sabir Rüstəmxanlıdan nəsə yazmaq üçün gərək ən azından yüz yaşın, iki yüz yaşın, min yaşın ola və əsrlər boyu xalqımızın başına gətirilən müsibətləri, yaşadığı ağrı- acıları, iztirabları, qanlı faciələri görəsən ki, "Göytürklər"dən tutmuş "Cavad xan"a, "Difai fədailəri"nə qədər, onun əsərlərindəki el-oba, Vətən yanğısının, parçalanma vahiməsinin əsl mahiyyətini hiss edəsən...

Sabir Rüstəmxanlıdan nəsə yazmaq üçün gərək çooox qoca olasan, çərxi fələyin özü qədər...

Həm də çox cavan olasan, onun gəncliyindən başladığı azadlıq mübarizəsinin energetikasını tam hiss edə biləsən... Yalnız onda başa düşərsən ki, niyə "mən şeytanın ümidini üzən millətəm"...

Bizim yaş nəsli üçün Sabir Rüstəmxanlı azadlıq məvhumunun mahiyyətini damcı-damcı şüurumuza və ruhumuza yeridən ziyalılarımızdan biriydi. Həm də bu gərgin və qanlı mübarizənin ön sıralarında gedirdi. Öz yazılarıyla, şeirləriylə çıxışlarıyla... Mübarizə aparırdı və bəlkə, özü də hiss eləmədən mifləşirdi.

Yəqin ki, indiki gənc nəslə çətin olar bunu anlamaq. Axı son onilliklərdə müğənnilərin, blogerlərin, aktyorların, hətta avtomobillərin mifləşdiyi bir dövrdə yaşayırıq. Azadlıq carçılarının, azad söz sahiblərinin mifləşdiyi, minlər, hətta milyonlar tərəfindən sevildiyi bir dönəmin nə vaxtsa mövcud olduğu bəlkə də onlara inandırıcı görünmür. Eybi yox, qoy inandırıcı görünməsin... Nə qədər inandırıcı olmasa, bir o qədər də sürətlə mifləşəcək. "Ömür kitabı"nın, o vaxtkı "Azərbaycan" qəzetinin mifləşdiyi kimi...

Bir maraqlı məqamı da qeyd edim ki, müzəffər Qarabağ müharibəsindən sonra otuz il əvvəlki azadlıq mücadiləsinə də münasibət bir qədər dəyişəcək, yenidən və başqa rakursdan öyrənilməyə başlanılacaq. Etiraf edək ki, onilliklər boyu həmin azadlıq mücadiləsiylə bağlı ikili fikirlər içindəydik... Hətta bəzən bu cür düşünürdük - nə olsun ki, müstəqillik əldə elədik, əvəzində ərazimizin beşdə birini itirdik.

Məhz bu faktor, o hərəkatın içindəki intriqanların, siyasətbazların arasında həqiqi azadlıq mücahidlərinin də unudulmasına gətirib çıxarırdı.

Lakin indi, dediyim kimi artıq hər şey çox dəyişib. Artıq otuz il əvvələ qayıdıb, faktları saf-çürük edib, kimin kim olduğunu üzə çıxarmaq zamanıdı. Və bu proses başlasa biz Sabir Rüstəmxanlının həmin dövrlərdəki titanik əməyinin, gərgin mübarizəsinin həqiqi dəyərini verə biləcəyik.

Və məncə, onun 75 illik yubileyinə bundan böyük hədiyyə ola bilməz...